# Təkamül həmişə vardır

(Əvvəli ötən sayımızda)

Hər bir xalqın ana dili onun mənsubiyyət formasıdır. Bildiyimiz kimi, dövlətləri tanıdan onun rəmzləridir. Gerblər, bayraqlar, pul vahidləri, dövlət dili məhz dövlətləri bir-birindən fərqləndirən, rəmzi məna daşıyan müqəddəs ünsürlərdir. Dini mənsubiyyət dedikdə hazırki dövrdə birallahlılıq-müsəlman və xristian dinləri mövcuddur. Bu dinlərə isə dünya dövlətləri fərqli xüsusiyyətləri ilə məxsusdur. Dinlərə mənsub olan dövlət və xalqlar da öz fərdiliyinə görə fərqlidirlər-bu fərdilik məhz onların rəmzi varlıqlarıdır. Onların arasında isə ən ilkin rəmz onun dilidir. Dünyada dövlətlərin danışıq dili (rus, ingilis) seçilə bilər, ancaq xalqa məxsusluq onun ayrı-ayrılıqda özünəməxsus ana dilidir.

Azərbaycan xalq şairi Bəxtiyar Vahabzadə "Ana dili" şeirində yazır:

***Dil açanda ilk dəfə ana söyləyirik biz,***
***"Ana dili" adlanır bizim ilk dərsliyimiz.***
***Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,***
***Bu dil əcdadımızın bizə miras verdiyi***
***Qiymətli xəzinədir ... onu gözlərimiztək***
***Qoruyub nəsillərə biz də hədiyyə verək!***

Bu şeir ana dilimizin qiymətini, əvəzolunmaz sərvət olduğunu ifadə edir. Həmçinin dilimizi təhrif edən, onu bayağılaşdıran, həmçinin azərbaycanlı olduğu halda, azərbaycanlılar arasında ya özgə dildə danışan, ya da başqa dildə olan söz və kəlmələri danışıq tərzində işlədərək öz ana dilini hörmətsiz edir. Doğrudur, yazı dili, tərzi başqa, danışıq dili başqa olur. Ancaq milliliyi, mənəviyyatını düşünən hər kəs danışıq mədəniyyətinə diqqət etməlidir.

Bəxtiyar Vahabzadənin "Ana dili" şeirində bu fikir belə ifadə olunur:

***Ey öz doğma dilində danışmağı ar bilən fasonlu ədəbazlar,***
***Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.***
***Bunlar qoy mənim olsun,***
***Ancaq Vətən çörəyi***
***Sizlərə qənim olsun!***

Azərbaycançılığa məxsus dialektlərdən danışıq dilində istifadə olunur. Ancaq bu şivələr danışıq dilində öz yerində, məqamında işlədildikdə dilimizi bir növ şirinləşdirir.

Dilimiz qürurumuz, fəxrimizdir, anamız kimi, Vətənimiz kimi müqəddəsdir. Dilimiz tarixi keçmişimizin qəhrəmanlıq abidəsidir. İnkişaf etmiş, güclü dövlətin özünəməxsus dilinin inkişaf etməsi və qorunub saxlanması onun xalqa məxsusluğunu ifadə edir və o xalq dünya ölkələri arasında tanınır. Məhz bizim ana dilimiz də bu qisim dillərdəndir. Biz bu dillə ədəbiyyat kolifeylərimizi tanıdırıq, qəhrəmanlarımızı, ölkəmizin ictimai-siyasi həyatını təbliğ edirik. Musiqimizi bu dildə səsləndiririk. Şəhadətə qovuşan, qazi olan igidlərimiz vətən, torpaq uğrunda "Vətən mənə oğul deyir" düşüncəsi ilə qəhrəmanlıq salnaməsi yazırlar. Çünki dilinə hörmət qoyan, sevən və onu bütün "çalarları" ilə qoruyan hər kəs xalqımıza xas milli-mənəvi dəyərlərə məxsusdur. Dilimizi tam mənada öyrənməli və bu dildə sərbəst, açıq şəkildə, sırf öz sözlərimizi ifadə etməklə danışmaq mənəvi dəyərlərimizin zənginliyinin əsas şərtidir.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".

Dilimiz sərvətimiz, zənginliyimizdir. Onu qorumaq isə hər bir vətənpərvər insanın, hər vətəndaşın insanlıq borcudur.

**Bibixanım İSAYEVA.**

# Ana dilimizi qoruyaq

***Dil millətin simasını səciyyələndirən amillərdən biri onun milli sərvətidir***

Ana dili bizim üçün müqəddəs dildir və bu dili yad ünsürlərdən mühafizə etmək, onun tamlığını, saflığını, şirinliyini, bir sözlə təkrarsızlığını qorumaq hər birimizin vətəndaşlıq borcudur. Birmənalı şəkildə hər bir Azərbaycan vətəndaşı bu məsuliyyəti öz üzərində hiss etməlidir. Əlbəttə bir xalqın dilini yalnız xalq özü qorumalı və yaşatmalıdır. Minilliklərdən süzülüb gələn tariximizi qoruduğumuz kimi doğma dilimizi də qoruyub gələcək nəsillərə təmiz bir şəkildə çatdırmalıyıq. Bu yolda ən böyük şərəfli bir vəzifəni yerinə yetirməklə layiqincə çalışmalıyıq. Bu aktual məsələdə hər birimizin üzərinə böyük məsuliyyət düşür. Hər bir vətəndaş peşəsindən asılı olmayaraq çalışdığı sahədə bu məsələyə daha dəqiq yanaşmalı, yaşadığımız zamanda dilimizin qorunması və yaşadılması prinsiplərini əsas tutmalıdır. Çünki bu gün biz yaşadığımız zamanın vətəndaşı olaraq bu mövzuda səhvə yol verəriksə gələcək nəsillərə saxtalaşdırılmış bir milli-mənəvi sərvət ərməğan etmiş olarıq. Bu yanlışlara yol verməmək üçün ömrümüzü mənalandıran, xəyallarımızı qanadlandıran, dostumuza, əzizlərimizə böyük sevgi və məhəbbətlə müraciət etdiyimiz, isti münasibət qurduğumuz doğma dilimizi qorumalıyıq. Çünki dostumuza sevgimizi, düşmənimizə nifrətimizi bu dildə daha açıq-aydın şəkildə səsləndirə bilirik. Ana dili bizim varlığımız, vüqarımız, fəxr dünyamızdır. Bir sözlə ana dilimiz anamızın dilidir, laylamızın ahəngi, doğma səsi, avazıdır. Analarımızın laylasının özəyi, ata nəsihətinin əvəzedilməz kəlmələridir ana dilimiz. Milli mənsubluğumuz, varlığımız və tarixən əcdadlarımızın bizə verdiyi ən dəyərli mirasdır. Tükənməz xəzinə, milli ruhumuz, şəhidlərimizin son nəfəsdə "Təki vətən yaşasın" dediyi ən dəyərli ifadələrdir ana dilimiz. Bu dildə milli sərvətlərimiz, milli ruhumuz, daxili aləmimiz, dünyaya baxışımız, ülvi sevgilərimiz, vətən məhəbbətimiz və ümumilikə böyük, qocaman bir Azərbaycan kəlməsi yaşayır.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur. Dil hər bir xalqın varlığının əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dili dövlət rəmzlərimiz olan himn, gerb, bayraq kimi müqəddəsdir.

Dünya durmadan irəliləyir, qloballaşır, bir sözlə bu qədər sürətli inkişaf edən cəmiyyətdə hər xalq özünə məxsus olan bütün maddi-mənəvi sərvətləri sevə-sevə qorumalıdır. Hərtərəfli inkişaflar zamanında bu kimi amillərə daha da böyük diqqət tələb olunur. Məlum olduğu kimi zamanın müxtəlif mərhələlərində dilimiz sıxışdırılıb, hətta yasaq edilib. 1937-ci ildə də ana dilimizdə yazıb-yaradan, bu dilin ahəngdarlığını xalqa, eləcə də dünyaya təlqin etmək istəyən elm fədailərimiz sonu bilinməyən yola göndərildi. Əlifbamız dəfələrlə dəyişdirilərək saxtalaşdırıldı, xalqı çaş-baş vəziyyətə salmaq, ana dilimizə müxtəlif mənşəli sözləri daxil etməklə milli-mənəvi sərvətimizə qarşı açıq şəkildə qəsd edildi. Lakin illər keçdi, zaman dəyişdi bizim dilimizə qarşı olan sevgimiz dəyişmədi. 1937-ci ilin hadisələrini arxada qoysaq da qaysağı bərkimədi. Dil məsələsi, ana dili problemləri xalqın düşünən zəkalarını daim narahat edirdi. Sovet hakimiyyəti illərində milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Lakin bütün bunlara baxmayaraq, məhz elə 70-ci illərdə Azərbaycan Respublikasının rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirdi. Ulu Öndər çox yaxşı bilirdi ki, hər bir xalqın dili onun mənsubluğu və qədim tarixə malik olduğunun sübutudur. Milli sərvətimiz olan ana dilimizə yad münasibət bəsləmək xalqı uçuruma apara bilərdi. Xalqımızın dühaları da bu mövzuya hər zaman həssas yanaşmış, yaradıcılıqlarında əsas istiqamət seçmiş və günün aktual məsələsi kimi qabartmışdır. Bildiyimiz kimi Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində "Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır" ifadəsi ilə bu dilin zənginliyini, qədimliyini bir daha diqqətə çatdırdı və mühafizə olunmasının zəruruliyini vurğuladı. Bu işdə hər bir azərbaycanlının üzərində böyük məsuliyyəti, vəzifəsindən asılı olmayaraq bu məsələyə həssas yanaşılmasının vacib amil olduğunu bəyan etdi. Dilimizi pozan xarici kəlmələrdən, zəngiliyimizi, milli kimliyimizi sarsıdan ifadələrdən uzaq durmağı Azərbaycanı və Azərbaycan dilini sevənlərə dəyərdim bir nəsihət verdi.

Bütün bunlar onu bir daha sübut edir ki, demək biz bir xalq olaraq yaşayırıq, dilimizi sevirik və sevəcəyik. Ulu babalardan yadigar qalan, Uca Rəbbimizdən bəxtimizə düşən bu şirin dili sevərək yaşatmalıyıq. Yaşatmalıyıq ki, yaşayaq. Zəngin, əvəzedilməz və ahəngdar dilə malik bir xalq həqiqətən də dərin tarixi köklərə malikdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, var olduğunu sübut edən müqəddəs ana dilidir. Əlbəttə xalqın tərəqqisində onun hərtərəfli inkişafında dili mühüm rol oynayır. Ədəbi dilin tərəqqisi milli-mənəvi mədəniyyətimizin tərəqqisi, milli ruhumuzun varlığı, ölməzliyin nişanəsi, böyük, uğurlu gələcəyə geniş yol deməkdir. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da güclənməlidir. Çünki, dilimiz millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Bu sərvətləri qorumaq, dəyərləndirmək, mühafizə etmək hər birimizin vətəndaşlıq borcudur.

**İlhamə SEYIDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi.**

# Şahmatçılarımız finala gedirlər



Şahmat üzrə 6-16 yaşlı məktəblilər arasında Qax şəhərində keçirilən Ölkə çempionatının zona mərhələsi başa çatmışdır. Qəbələni təmsil edən şahmatçılarımız da inamlı mübarizə aparmış, aşağıdakı qaydada qalib yerləri əldə etmişlər.

Mehran Məmmədov, 14 yaş dərəcəsi, ikinci yer.

Fərihan Əliyeva, 14 yaş dərəcəsi, ikinci yer.

Uğur Məmmədli, 10 yaş dərəcəsi, ikinci yer.

Vurğun Məsimli, 10 yaş dərəcəsi, üçüncü yer.

Atilla Əsədli, 8 yaş dərəcəsi, üçüncü yer.

Şahmatçı şagirdlərə uğurlar arzulayır, həmçinin, yarışların təşkilatçılarına, baş hakim Sadiq Mehdiyevə, məşqçi Araz Alməmmədova, bizimlə birlikdə olmuş valideynlər Arzu Məmmədov və İqbal Əsədova təşəkkür edirik!

**Ədalət ƏLIYEV,**
**Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinin direktoru.**

# "Anam yolumu gözləyir"

Bu gün Qəbələ Dövlət Peşə təhsili mərkəzində Aygün Hüseynin "Anam yolunu gözləyir" kitabının təqdimat mərasimi keçirildi.

Tədbirdə Qəbələ Dövlət Peşə Təhsili Mərkəzinin tələbələri, direktor müavini, müəllim kollektivi, şəhid ailələri, yazarlar, təşkilat rəhbərləri, şəhidin ailə üzvləri ,yaxınları iştirak etmişlər.

Əvvəlcə Azərbaycan respublikasının dövlət himni səsləndirilmiş, dövlətinin suverenliyi, ərazi bütövlüyü və torpaqlarının düşmən tapdağından azad olunması uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilmişdir.

Kitabın müəllifi Aygün Hüseyn "Anam yolunu gözləyir" kitabı haqqında məlumat vermiş, qürur hissi keçirdiyini bildirmişdir.




Daha sonra şəhid valideynləri çıxış edərək gələn qonaqlara minnətdarlığını bildirmişdir.




Şəhid Soltanbəyli Tamerlan haqqında maraqlı videoçarx nümayiş olundu..

Tədbirin sonunda tamaşaçılara "Anam yolunu gözləyir" kitabı hədiyyə olunğuşdur.

Allah rəhmət eləsin şəhidlərimizə!

**Təranə ALMƏMMƏDOVA,**
**Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İB Qəbələ rayon nümayəndəliyinin**